**UOT 94(470) "1150/15"**

# RUSİYA FEDERASİYASI VƏ NATO

**M.P.OSMANLI**
***Bakı Dövlət Universiteti***
***maharatosman@mail.ru***

*Məqalədə müasir dövrdə Rusiya Federasiyasının NATO bloku ilə qarşılıqlı əlaqələrindən bəhs olunur. SSRİ-nin süqutundan sonra beynəlxalq münasibətlərin mühüm problemlərindən biri NATO-nun şərqə doğru genişlənməsi oldu. Buna səbəb isə NATO-nun tədricən Mərkəzi və Şərqi Avropa, Baltikyanı, Mərkəzi Asiya əraziləri və ən nəhayət Rusiyanın özü hesabına heyətini şərqə doğru genişləndirmək niyyəti idi. Həmçinin Rusiya prezidenti B.Yeltsin və NATO-nun Baş katibi Xavyer Salananın, habelə Şimali Atlantika blokunun üzvü olan 16 ölkə rəhbərinin sənəddə Rusiya yaxınlığında NATO hərbi qüvvələrinin daimi əsaslarla fəaliyyət göstərən hərbi bazalarının yerləşdirilməsi haqda öhdəlik qəbul edildi.*

**Açar sözlər:** Rusiya, Şərqi Avropa, inteqrasiya, xarici siyasət

1990-cı illərin əvvəllərində beynəlxalq münasibətlərin ən vacib problemlərindən biri NATO - nun şərqə doğru genişlənməsi idi. Bu məsələ ətrafında aparılan diskussiyalar daha ümumi olan problemi – dünyanın müharibədən sonrakı bölgüsü sisteminin qəti şəkildə ləğv edilməsi və «soyuq müharibənin» törətdiyi nəticələr nəzərə alınmaqla, dünyanın yeni quruluşunun strukturlarını müəyyən etmək kimi böyük və ciddi problemin bir hissəsi idi.

1993-cü ilin sonu – 1994-cü ilin əvvəllərində NATO tərkibinin genişləndirilməsi məsələsi ətrafında güclənən diskussiyalara tamamilə Rusiyada və ondan kənarda bəzi subyektlərin strateji planlarının və konkret maraqlarının kəskin mübarizəsi kimi də baxmaq olar. Həmin ana qədər Qərb dairələrində hadisələrin bundan sonra necə inkişaf edəcəyi barədə bir neçə variant ssenari də vardı. Bu variantlardan biri – «uzun növbə» ssenarisi, hər şeydən əvvəl, ABŞ-ın maraqlarını, ştatların yüksək hərbi-siyasi qruplaşmalarının mənafelərini ifadə edir.

Bunun mahiyyətini qısa şəkildə belə ifadə etmək olar ki, NATO tədricən Mərkəzi və Şərqi Avropa, Baltikyanı, Mərkəzi Asiya əraziləri, ən nəhayət Rusiyanın özü hesabına heyətini Şərqə doğru genişləndirmək niyyətindədir. Bu konsepsiya ən açıq şəkildə ilk dəfə NATO-nun Baş katibi Manfred Vernerin çıxışında səslənmişdi. M.Vernerin fikrincə, NATO-nun əsas funksiyaların-

dan biri, Mərkəzi və Şərqi Avropa, Mərkəzi Asiya ölkələrində sabitliyə yardım etməkdir (1, 85).

Rusiya Federasiyasının özünün də NATO-ya daxil olması perspektivi ilə bağlı məsələlər dəfələrlə ABŞ və Rusiya rəhbərləri arasında müzakirə edilmişdi. Bu planın həyata keçirilməsi Rusiyanın hələ NATO strukturlarına bir neçə «təhlükəsizlik qurşağı» ilə təcrid edilməsinə nail olmağa imkan verir. Həmçinin, ehtimal reallaşsa da, onda NATO-ya inteqrasiya prosesinin istənilən mərhələsində artıq əldə edilmiş geosiyasi nüfuz dairələri hesabına təhlükəsizlik sisteminin sonrakı genişləndirilməsini dayandırmaq imkanlarını da əldən vermir.

NATO blokunun yeni geosiyasi nüfuz dairələri əldə etmək niyyətlərinin həyata keçirilməsi surətləri də dəfələrlə bəyan edilmişdir. ABŞ müdafiə nazirliyi bildirmişdir ki, biz NATO-nun üzvlərinin siyahısının yalnız o şəkildə genişlənməsinə yol verə bilərik ki, bu zaman yeni ortaya çıxan problemlər çox olmasın, artıq həll edilmiş problemlərin sayı isə kifayət qədər qaneedici olsun (2, 103).

NATO-nun tərkibinin genişlənməsinə münasibət haqqında təxminən birinci konsepsiyaya bənzəyən ikinci variantda da Mərkəzi və Şərqi Avropa ölkələrinin, habelə Mərkəzi Asiya respublikalarının və Hətta Rusiya Federasiyasının özünün də NATO tərkibinə daxil olması nəzərdə tutulur. Lakin bu variantın əsaslı ziddiyyətli cəhəti Şimali Atlantika blokuna yeni üzvlərin qəbulu prosesində hər hansı bir ardıcıllığın olmasının nəzərdə tutulmasıdır. Bu varianta münasibətdə Rusiya Federasiyasının sabiq prezidenti B.Yeltsinin fikri diqqəti daha çox cəlb edir. B.Yeltsin hələ o vaxt bildirmişdi ki, onun ölkəsi NATO tərəfindən bu təşkilata qəbul olunmaq üçün dövlətlərin bir-birindən ayrılması, təklənməsi qaydasının əleyhinədir. O, daha sonra fikrinə davam edərək bildirdi ki, yəqin ki, gələcəkdə elə bir şərait yaranacaq ki, hamı birlikdə, bir paket halında birləşəcək və onda həm Rusiyanın, həm də qalan dövlətlərin təhlükəsizliyi təmin olunacaq (3, 76; 4, 2).

NATO-ya yeni üzvlərin qəbul edilmə prinsipləri haqqında gedən diskussiyalarda formalaşan üçüncü ssenari variantda isə hal-hazırda artıq formalaşmış olan qüvvələr nisbətindəki status-kvoya sözsüz əməl edilməli, bu status-kvo əsasında, habelə NATO, qərbi Avropa İttifaqı, «Varşava bloku» üzvləri, Baltikyanı ölkələr, MDB-yə daxil olan dövlətlərin hər birinin bərabər hüquqlarla daxil ola biləcəyi ATƏM-in müxtəlif strukturlarının fəaliyyəti daha da genişlənməlidir (5, 104).

Bu konsepsiyanın müdafiəçiləri daha çox Rusiyada ilk növbədə güc strukturlarına daxil olan təşkilatlar (Təhlükəsizlik Şurası, Müdafiə Nazirliyi) və Prezidentin yaxın əhatəsinə daxili elitaya mənsub hərbçilərdir.

Rusiya Xarici İşlər Nazirliyini təklif edilən radikal variantda «daha çox ehtimal edilən ənənəvi rəqiblərə» ənənəvi etimadsızlıq siyasətinin qalması, daxili siyasətdə hərbçilərin rolunun azalması, həmçinin Qərbin hərbi və daxildə mülki orqanların «güc strukturlarının» fəaliyyəti üzərində nəzarətlərinin artırılması xüsusilə qane etmirdi.

Belə yanaşma tərzi, müəyyən qədər də Amerikaya aiddir. Lakin konkret halda və vəziyyətdə amerikalılar belə hesab edirlər ki, yeni əldə edilmiş geosiyasi nüfuz dairələri ehtimal olunan itkilərdən daha çox səmərə verəcək.

Məsələn, ABŞ hakim dairələri Almaniyanın Şərqi Avropaya olan bəzi iddiaları ilə razılaşmaq məcburiyyətində qaldıqlarını bəyan etmişlər. Bu cəhətdən Böyük Britaniyanın sabiq baş naziri Marqaret Tetçerin belə bir ifadəsi məsələyə bir qədər də açıqlıq gətirir ki, Almaniyanın Şərqə oriyentasiya etməsi ciddi qarşılanmalıdır. Amerikanların fikrincə, Almaniya yaxın vaxtlarda Şərqi Avropanı ABŞ-ın Latın Amerikasını evin arxasında yaratdığı həyətyanı sahəyə çevirdiyi bir şəklə salmağa çalışacaqdır. Bu zaman amerikanların əsas təsəllisi isə bundan ibarətdir ki, hər halda almanlar dünyanın qalan regionlarında ikinci olacaqlar (6, 2).

Sözsüz ki, Rusiya diplomatik dairələrində məsələyə münasibətdə fikirlər və ehtimallar NATO təşkilatı üzvləri olan əksər ölkələr tərəfindən qəbul olunmur. Bu mövqedən çıxış edənlərin əsas arqumenti isə budur ki, NATO-nun «Sülh naminə» tərəfdaşlıq proqramına qoşulmaqla Şərqi Avropa ölkələri ehtimal olunan təhlükə və çətinliklərin əksəriyyətini aradan qaldırmış olurlar.

1994-cü il 22 oktyabrda NATO-nun növbəti sessiyası keçirildi. Sessiyanın yekunları, iştirakçı tərəflərin maraqları kimi əvvəlcədən bəlli idi və artıq həll olunmuş məsələlərin və mövqelərin rəsmiləşdirilməsini xatırladırdı. NATO üzvlüyünə ən real namizədlər – buraya ən çox can atanlar, yəni Polşa, Çexoslovakiya və Macarıstanın mövqeləri Almaniya tərəfindən çox qızğın müdafiə olundu. Sessiya ərəfəsində AFR Rumıniya respublikası ilə hərbi əməkdaşlığa dair saziş imzaladı və Danimarka ilə, Polşa ilə birlikdə hərbi sahədə əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan üçtərəfli saziş imzalamağa hazır olduğunu bildirdi. AFR - Rumıniya sazişi alman hərbi mütəxəssislərinin rumın zabit və əsgərlərinə təlim keçmələrini nəzərdə tuturdu. Sessiya «Sülh naminə tərəfdaşlıq» proqramını buna alternativ variant olmadığı üçün ilk oxunuş və müzakirədə bəyəndiyini bildirdi (2, 110).

«Sülh naminə tərəfdaşlıq» proqramı NATO hərbi təşkilatının rəhbərliyi ilə həyata keçməli idi və NATO təşkilatı Şurasında 1994-cü ilin yanvarın 10-da təsdiq edilmişdi. Proqram son tamamlanmış şəkildə aşağıdakı əsas prinsipləri nəzərdə tutur:

- NATO divarları daxilində məsləhətləşmələr aparılmasının;
- İştirakçı ölkələrin yığıncaqlara dəvət edilməsi;
- Hər bir tərəfdaş ölkəyə NATO-nun yardımı ilə özlərinin iqtisadi imkanları və müdafiə potensiallarını nəzərə almaqla xüsusi fərdi proqramlarını işləyib hazırlamaq imkanının verilməsi (2, 112).

Öz növbəsində «Sülh naminə tərəfdaşlıq» proqramını müvafiq olaraq tərəfdaş dövlətlər mülki hakimiyyət orqanlarının nəzarəti altında saxladıqları açıq hərbi büdcəyə və fəaliyyətinə dəqiq nəzarət edilən hərbi nazirliyin fəaliyyət mexanizminə malik olmalı idilər. 1995-ci ilin mayın 31-də NATO iştirakçıları olan ölkələrin xarici işlər nazirləri səviyyəsində keçirilən NATO Şurasının Nordveyndə baş tutmuş toplantısında Rusiya Federasiyasının Xarici İşlər

naziri A.Kozırev öz ölkəsinin «sülh naminə tərəfdaşlıq» proqramına qoşulduğunu bəyan etmişdi (4, 2).

Bu ərəfədə vəziyyətin kifayət qədər mürəkkəbliyinə baxmayaraq Şimali Atlantika bloku Şərqə doğru genişlənmək niyyətlərindən əl çəkmək fikrində deyildi. Z.Bzejinskinin «Nyu-York Tayms» qəzetində yazdığı məqaləsində deyildiyi kimi, NATO əgər genişlənməzsə, o süqut edəcək və «yaşamağa qadir olmaq» barədə tarixi zərurətdən məhrum olacaq və bununla da «Amerika liderliyi» diskreditə olunacaq (1, 81).

1995-ci ilin yazında yenə də «Nyu-York Tayms» qəzetində dərc edilmiş məqalədə bildirilirdi ki, «Soyuq müharibə»nin başa çatmasından sonra Rusiya ilə ABŞ-ın «bal ayı» bitmişdir. A.Kozırev və ABŞ dövlət katibi Uorren Kristofer bildirirdilər ki, bu iki ölkə arasında münasibətlər yeni, tam qeyri-romantik xarakter almalıdır (2, 122).

1996-cı il ərzində NATO-nun tərkibində heç bir dəyişiklik baş vermədi. Lakin yeni üzvlərin NATO-ya qəbul edilməsi sahəsində hazırlıq işləri davam etməkdə idi. 1996-cı ilin iyulun 10-da ATƏT-in Parlament Assambleyası Stokholm şəhərində xüsusi bəyanat qəbul edərək bildirdi ki, NATO-nun genişlənməsi və Avropada tam təhlükəsizliyin təmin edilməsinin əsas şərtlərindən biridir və bununla da Parlament Assambleyası ATƏT-in Təhlükəsizlik Şurasının yaradılması haqqında Rusiyanın təşəbbüsünü rədd etmiş oldu (7, 65).

İyul ayının 23-də ABŞ konqresi Polşanın, Çexoslovakiyanın və Macarıstanın NATO-ya daxil olması üçün hazırlıq işlərinə kömək məqsədilə 60 milyon dollar yardım ayrılması planını bəyəndi və hətta Ukraynanı, Moldaviyanı, Baltikyanı ölkələri NATO-ya daxil olmağa dəvət etdi (7, 69).

Artıq faktlar göstərirdi ki, Vaşinqton NATO-nun genişlənməsində israrlıdır və Rusiya bu işdə ona heç bir maneçilik törələ bilməyəcək. Rusiyanın növbəti Xarici İşlər Naziri Yevgeni Primakovun belə bir ifadəsi həmin şəraiti açıq ifadə edirdi ki, bizim Şimali Atlantika Alyansının genişlənməsinə veto qoymaq hüququmuz və ixtiyarımız yoxdur, lakin biz öz milli maraqlarımızı ciddi-cəhdlə qorumalı və öz təhlükəsizliyimiz haqqında ciddi düşünməliyik.

Bütövlükdə, 1996-cı ildə baş vermiş hadisələr Rusiya ilə Qərb ölkələri arasında münasibətlərin xeyli pisləşdiyini, gərginlik dərəcəsinin artdığını sübut edirdi. Belə xoşagəlməz gərginlik vəziyyətinin aradan qaldırılması məqsədilə ABŞ hökuməti 1997-ci ilin əvvəllərində bir sıra fəal addımlar atdı. O cümlədən ABŞ-ın yeni Dövlət Katibi Madlen Olbrayt Moskvada Y.Primakovla bir sıra məsləhətləşmələr apardı. Bundan əlavə, NATO-nun Baş katibi Xavyer Salananın Moskvaya gəlməsi də münasibətlərin yaxşılaşdırılması niyyətlərinin güclənməsindən xəbər verirdi. Hər iki nüfuzlu Qərb diplomatı Moskvaya NATO – Rusiya sazişinin hazırlanması sahəsində işləri sürətləndirməyi təklif etdi və onların fikrincə, bu saziş bir növ NATO-nun Şərqə doğru genişlənməsi siyasətini müəyyən qədər kompensasiya etmiş olardı. Eyni zamanda «16+1» formulası əsasında Brüssel şəhərində Rusiya Federasiyası və NATO arasında daimi kontakt yaradılmasını təmin etmək də təklif edilmişdi və bunun reallaşması Rusiyaya NATO çərçivəsi daxilində Avropa Təhlükəsizliyi nüvə strategi-

yasının planlaşdırılması, sülhməramlı qüvvələrin fəaliyyəti ilə əlaqədar olan bütün məsələlərin müzakirəsində iştirak etmək hüququ vermiş olurdu (8; 2, 2).

Bu məsələ ətrafında 1997-ci ilin yanvar-aprel aylarında aparılmış intensiv danışıqlar bağlı qapılar arxasında gedirdi və siyasi icmalçılar belə qənaətə gəlmişdilər ki, danışıqların xeyli müddət davam etməsinə baxmayaraq, hər hansı bir irəliləyişə nail olmaq baş tutmamışdı. Danışıqların məhz belə nəticəsiz keçməsi ilk növbədə Kremlin mövqeləri ilə əlaqədar idi və Moskva NATO-nun Şərqə doğru genişlənməsi siyasətinin tam əleyhinə olub bu məsələdə heç bir kompromisə getmək niyyətində deyildi.

Moskva hətta Brüsseli bu sahədəki planlarını dəyişməyə vadar etmək üçün açıq təzyiqlərdən belə çəkinmirdi. Həmin vaxt bəzi rus siyasətçilərinin nüvə silahından imtina etmək öhdəliyinə yenidən baxmağa çağırışlar etməsi də görünür, Moskvanın bu istiqamətdə atacağı yeni addımlara işarəyə bənzəyirdi. Məsələn, 1997-ci ilin fevralında Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi İvan Rıbkin bildirmişdi ki, bizim «qabaqlayıcı atom zərbəsi» endirmək ideyasından imtina etməkdə israrlı olmağımızın heç bir mənası yoxdur. Məhz həmin günlərdə Rusiya Dövlət Dumasında vitse-spiker S.Baburin başda olmaqla anti - NATO qrupu yaradılmışdı. Bu qrupa dumanın partiya fraksiyalarını və deputat qruplarını təmsil edən 200 deputat daxil idi. S.Baburin hətta belə bir bəyanat da vermişdi ki, Rusiya bu gün nüvə silahını işlətməmək haqqında götürdüyü öhdəliyə sədaqətli qalmağa borclu deyil (2, 168).

Çünki NATO rəhbərliyi qəti şəkildə bəyan etdi ki, bu məsələ 1997-ci ilin iyulunda NATO Şurasının sessiyasında tam şəkildə həll edilmişdir. Mayın əvvəlində artıq Moskvada anlatdılar ki, Şimali Atlantika blokunu öz planlarından daşındırmaq mümkün deyil və bu istiqamətdə Rusiyanın bütün səyləri uğursuz olmuşdur. Yalnız bundan sonra Moskva kompromis yoluna keçmək və bu zaman Qərbdən bir sıra güzəştlər qoparaVaraq, NATO siyasətinin mənfi nəticələrini minimuma endirmək niyyətində idi.

1997-ci ilin mayın sonunda aparılmış gərgin danışıqlardan sonra Rusiya və Şimali Atlantika bloku arasında kompromis saziş variantını işləyib hazırlamaq mümkün oldu. Bu, Rusiya və NATO arasında əsas saziş aktı və ya dəqiq desək, «Rusiya Federasiyası və Şimali Atlantika Müqaviləsi Təşkilatı» arasında qarşılıqlı münasibətlər, əməkdaşlıq və təhlükəsizlik haqqında əsas aktın imzalanması demək idi (9, 1).

1997-ci ilin mayın 27-də Parisdə imzalanan və son dərəcə mühüm əhəmiyyət kəsb edən bu sənəd böyük tarixi əhəmiyyətə malik idi. Fransa prezidenti Jak Şirakın təbirincə desək, dünənki düşmənlər arasında mövcud olan qarşıdurma məntiqinin yerini bərabər hüquqlu tərəfdaşların əməkdaşlığı erası tutacaqdır. J. Şirak xüsusi olaraq qeyd edirdi ki, bu sənədin imzalanması ona görə baş tutdu ki, həm Rusiya, həm də NATO çox ciddi dəyişikliklər dövrü yaşayırlar, xüsusilə Rusiya demokratiya və islahatlara doğru öz seçimini etmişdir (7, 58).

B.Yeltsinin dediyi kimi, Rusiya prezidentinin, NATO-nun Baş Katibi Xavyer Salananın, habelə Şimali Atlantika blokunun üzvü olan 16 ölkə rəhbə-

rinin imzaladıqları bu sənəddə ən sadə suallara belə cavab verilmişdir. Bunlar içərisində nüvə silahlarını yerləşdirməmək və buna doğru aparıb çıxaracaq ki, heç bir hərəkətə yol verməmək, qitədə ağır silahların azaldılması haqqında birgə razılığın əldə edilməsi, Rusiya yaxınlığında NATO hərbi qüvvələrinin daimi əsaslarla fəaliyyət göstərən hərbi bazalarının yerləşdirilməməsi haqqında öhdəlik qəbul edilməsi daha mühüm əhəmiyyət kəsb edirdi. B.Yeltsin bildirirdi ki, bütün bunlar o deməkdir ki, biz bir-birimizin maraqlarına zərbə vurmamaq haqqında razılığa gələ bilmişik. Rusiya prezidenti bunu əlavə edirdi ki, Rusiya və Alyans arasında məsləhətləşmələr və əməkdaşlıq mexanizmi yaradılır və bu, bərabərhüquqlu əsaslarla bizim maraqlarımızı əhatə edən təhlükəsizlik və sabitliklə bağlı olan bütün məsələlər üzrə müzakirələr aparmaq və birgə qərarlar qəbul etməyimizə imkan verir (4, 2).

Əsas sənədin bütün məzmununun nəzərdən keçirilməsindən sonra belə bir ifadəni xüsusilə qeyd etmək lazımdır ki, Rusiya Federasiyası bir tərəfdən və Şimali Atlantika hərbi blokundan sonra Rusiya və NATO möhkəm qarşılıqlı öhdəliyi yüksək siyasi səviyyədə qəbul etdikdən sonra qarşılıqlı əməkdaşlığa əsaslanan demokratiya və təhlükəsizlik şəraitində Avroatlantika regionunda möhkəm və hərtərəfli birgə səy göstərəcəklər. Məhz bu ifadə gələcək birgə fəaliyyətin başlıca məqsədini ifadə edərək bu yüksək səviyyəli sənədin xarakterini ifadə edir (9, 2).

Beləliklə, Rusiya prezidenti və Rusiya hökuməti bu sənədin imzalanması ilə NATO ilə gələcək birgə əməkdaşlıq məsələlərinə rəsmən öz münasibətini müəyyən etmiş oldu. Lakin məlum səbəblər üzündən bu sənəd müxalifəti təmin etmirdi. Xüsusilə, müxalifətyönümlü partiyaların liderlərini əsas belə bir ifadə ciddi narazı salırdı ki, Rusiya demokratik cəmiyyət qurmaqda və öz siyasi və iqtisadi transformasiyasını davam etdirməkdədir. Bu narahatlıq və narazılıq isə öz milli təhlükəsizlik konsepsiyasını inkişaf etdirməyi və öz hərbi doktrinasına yenidən baxaraq, onu yeni reallıqların formalaşdığı şəraitdə təhlükəsizliyin təmin olunmasına yönəltməyi sürətləndirirdi. Əsas sənədin şərtlərindəki öhdəliklərə sözsüz əməl etmək niyyətində olan Rusiya öz silahlı qüvvələrinin ixtisar edilməsi üçün çox geniş addımlar addımlar atdı, Mərkəzi və Şərqi Avropadan, habelə Pribaltikadan öz qoşunlarını indiyədək görünməmiş bir miqyasda çıxarmış, malik olduğu bütün nüvə silahlarını öz milli əraziləri daxilinə gətirib yerləşdirmişdi. Rusiya, həmçinin, BMT və ATƏT siyasətini dəstəkləmək məqsədilə sülhməramlı əməliyyatlarda, habelə dünyanın müxtəlif rayonlarında konflikt vəziyyətlərin nizamlanmasında yaxından iştirak edirdi (10, 122).

Rusiya bundan başqa Bosniya və Herseqovinada da çox millətli sülhməramlı qüvvələrin yerləşdirilməsində də iştirak etdi (10, 122).

Ümumiyyətlə isə bu məsələyə rus müxalifətinin münasibəti həddən artıq sadə olmuş və olmaqdadır. Milli vətənpərvər qüvvələrin strategiyasında NATO-nun genişlənməsinə müqavimət göstərilməsi mövqeyi açıqca təsvir edilmişdir. Müxalifətin təbirincə desək, xarici düşmənlər Rusia sərhədlərinə lap yaxınlaşmaqda davam edirdilər və belə bir şəraitdə ölkənin tanınmış bir sıra siyasətçilərinin satqınlığı nəticəsində zəifləmiş olan ölkə düşmən təca-

vüzünə müqavimət göstərmək gücündə deyil. Belə bir vəziyyətdə yalnız fövqəlapdə tədbirlər (belə dedikdə, müxalifət özünün hakimiyyətə gəlməsini nəzərdə tuturdu) ölkənin tam təhlükəsizliyini təmin edə bilər.

Bunu da qeyd etmək lazımdır ki, artıq indi müxalifət sıralarında da bir çoxları başa düşməkdədirlər ki, NATO təhlükəsi haqqında fikirlər və baxışlar yalnız o insanlar üçün cəlbedicidir ki, onlar heç vaxt Avropa ölkələrinə səfər etməmişlər. Qalanları isə çoxdan başa düşmüşlər ki, sülh və ya təcavüz iki əsrin qovuşuğunda Avropa üçün seçim məqsədinə xidmət edir. Lakin bu da var ki, müxalifət öz tərəfindən NATO-nu yox, onun tərkibinin genişlənməsini inkar edir. Eyni zamanda, bu baxışların tərəfdarları Şimali Atlantika blokunda ABŞ-ın istiqamətverici rolunu da qəbul etmirlər. Rusiyadakı kommunistyönümlü və milli-vətənpərvər müxalifətin Avropaya münasibətdə xüsusi kəskin iddiaları yoxdur. Müxalifət «NATO ekspansiyası» ilə əlaqədar hay-küy qaldırmaqla, əslində Rusiya daxilindəki islahatçı qüvvələri, daha doğrusu qərbyönümlü qüvvələri hədəfə götürür və onları seçim qarşısında qoyur: NATO-ya münasibətlərində öz siyasi andlarına qarşı çıxaraq ölkə daxilində öz silahlarını artırmaq, ya da daxili siyasi motivlər üzündən müxalifətə havadar çıxaraq, Qərbdə vəziyyəti mürəkkəbləşdirmək.

Müxalifətin sıralarında səslənən narazılığı başa düşmək o qədər də çətin deyil. Bu vəziyyət onunla əlaqədardır ki, müxalifət hökumətin getdiyi güzəştlərə, ümumiyyətlə, güzəşt demək olarmı? Bəlkə də yox. Çünki, həm blok istirakçıları olan ölkələr, həm də Rusiya üçün hər hansısa bir təhlükəsizlik təminatı axtarmaq lazım gələrdi. Halbuki, «Sülh naminə tərəfdaşlıq proqramı» (1994-cü ilin iyun ayında qəbul edilmişdi) artıq Şimali Atlantika blokunun Şərqə doğru daim güclənməkdə olan genişlənmək niyyətlərinin mövcudluğu şəraitində artıq bu kifayət deyildi (8).

Və nəhayət çoxdan gözlənilən və ehtiyat edilən hadisə baş verdi. NATO Alyansının Polşa, Çexiya və Macarıstanla 1997-ci ilin 8 iyulundan başlanan danışıqlar nəticəsində 1999-cu il martın 12-də Varşava hərbi paktının üç keçmiş üzvü, bu çox mötəbər beynəlxalq təşkilatın sıralarına daxil edildilər və sözsüz ki, bu məsələ də Rusiyanın təzyiq və təsirlərinin heç bir səmərəsi olmadı (1, 94).

Məhz elə bu andan da Rusiya artıq özünün ən yaxın qərb qonşuları ilə münasibətlərini əvvəllər olduğu kimi yox, indi onların NATO blokundakı statusu ilə hesablaşmaq əsasında yenidən qurmalı oldu. Məhz bunun nəticəsi idi ki, Rusiya Federasiyası vətəndaşlarının bu ölkənin sərhədlərini keçməsi qaydaları da dəyişdirildi.

## ƏDƏBİYYAT


1. Салана Хавьер. НАТО и Россия способны конструктивно сотрудничать // Журн. Военный парад. – 1999, № 31, с. 80-88.
2. Россия и Европа. М.: Наука, 1996, 101 с.
3. Mustafayeva S. Avropa və Amerika ölkələrinin ən yeni tarixi. 2 hissədə. II h. (1945-2000). Bakı: ADPU nəşri, 2008, 468 s.
4. Арбатов Алексей. Империя или великая держава? // Журн. *"Новое время"*, 1992, № 49, с.1-3.

5. Иванов П., Халоша Б. НАТО и интересы безопасности России // Мировая экономика и международные отношения, 1997, №8, с.100-108.
6. Робертсон Джордж. Отношения НАТО – Россия: новое начало. Независимая газета, 1998, 12 март.
7. Рогов С.М. Россия и США на пороге XXI века // М.: Свободная мысль, 1997, 382 с.
8. http://www.rami.ru/projects/yalta/0027a.htm
9. Основополагающий акт о взаимных отношениях, сотрудничестве и безопасности между Российской Федерацией и Организацией Североатлантического договора. Российская газета, 1997, 28 мая.
10. Беляев Сергей. Расширение НАТО на Восток: второй круг. М.: Евразия, 1998, 428 с.

## РОССИЙСКАЯ ФЕДЕРАЦИЯ И НАТО

**М.П.ОСМАНЛЫ**

**РЕЗЮМЕ**

В статье говорится о взаимоотношении Российской Федерации с НАТО на современном этапе.

После распада СССР одной из главных проблем в международных отношениях стало расширение НАТО на Восток. Целью этой миссии является постепенное расширение сферы влияния НАТО за счет России в Центральной и Восточной Европе, в Прибалтике и в Центральной Азии.

Также, можно отметить, что президент России Б.Ельцин и генеральный секретарь НАТО Хавьер Салана, в том числе главы 16 государств, приняли документ об обязательстве, о размещении постоянно действующих войск НАТО в близи России.

**Ключевые слова:** Россия, Восточная Европа, интеграция, внешняя политика

## RUSSIAN FEDERATION AND NATO

**M.P.OSMANLI**

**SUMMARY**

The article deals with mutual relations of the Russian Federation with NATO at the present stage.

After disintegration of the USSR, one of the main problems in the international relations was NATO's expansion to the east. The purpose of this mission is the gradual expansion of the sphere of influence of NATO at the expense of Russia in Central and the Eastern Europe, in Baltic and in Central Asia.

The president of Russia, B.Yeltsin and the secretary general of NATO, Javier Salana, including heads of 16 states accepted the document on the obligation on placing constantly operating armies of the NATO in the near Russia.

**Key words:** Russia, Eastern Europe, integration, foreign policy